

**Əliqulu BƏDİRLİ**
*BDU-nun filologiya fakültəsinin dördüncü kurs tələbəsi*

**AYRILAQ**

Daha sağollaşıb gedirsən bu gün,
Son dəfə gəl deyib-gülüb ayrılaq.
Axan yaşımızı gülüş içində
Uzadıb əlləri silib ayrılaq.

Biz nələr düşündük, qismət nə imiş,
Sənsizlik yanında qürbət nə imiş,
Kim bilmək istəsə həsrət nə imiş,
Artıq bizə baxıb, bilib, ayrılaq.

Nə dilim get desin sənə, nə gözüm,
Nə kəlməm qurtarsın, nə də ki sözüm.
Səni ötürməyə çıxmışam özüm,
Son dəfə kədəri bölüb ayrılaq.

Sanki ayrılana oxşamırıq biz,
Gülüşün damladır, göz yaşın dəniz.
Sarıb bir- birini qalmışıq səssiz,
Buraxma, beləcə ölüb ayrılaq.

Gözün ağlamasın, qəlbim qan olur,
Özümdə özümə min üsyan olur,
Baxdıqca varlığım yarımcan olur,
Daha Əzrail da gəlib, ayrılaq!

Gülməsən, bir anı gülmürəm axı,
Özgəylə sirrimi bölmürəm axı,
Mən sənsiz yaşaya bilmirəm axı,
Buraxma, beləcə ölüb ayrılaq...

***

Bezmişəm bu sənsiz ömürdən daha,
Küsülü deyilik, deyəm, barışaq.
Bircə təbəssümün canımdan baha,
Bir az gülümsəyək, bir az danışaq.

Nə sənə gül olum, dərəsən məni,
Nə paytək kimsəyə verəsən məni,
Arada yuxunda görəsən məni,
Bir az gülümsəyək, bir az danışaq.

Dəniz kənarında gəzəndə çağır,
Əlini ümiddən üzəndə çağır,
Dünyada hər kəsdən bezəndə çağır –
Bir az gülümsəyək, bir az danışaq.

Gedək bu şəhərdən şəhərsiz yerə,
Gecəsi ulduzlu, səhərsiz yerə.
Gedək bir anlıq da qəhərsiz yerə,
Bir az gülümsəyək, bir az danışaq.

Bitməsin gülüşün, şirin sözün də,
Alışım qəlbimin yanar közündə.
Əlim saçlarında, gözüm gözündə
Qəlbin atəşinə yanaq, alışaq -
Bir az gülümsəyək, bir az danışaq.